# POETİK DUYUM VƏ FƏLSƏFİ DÜŞÜNCƏ

## (Ramiz Qusarçaylı yaradıcılığı haqqında )



Əmir Pəhləvan

**Ramiz Qusarçaylı Azərbaycan poeziyasının tanınmış simalarından biridir.**

**Ramiz həyatla fəsəfənin arasında poetik söz təbiətidir, bulaq kimi axır... O, bütün canlılarla, eləcə də cansızlarla öz duyğuları ilə həmsöhbət olur. Onlardan nə sorursa, nə əldə edirsə onu da poetik duyum və fəlsəfi düşüncə kontekstində oxucu ilə bölüşür.**

***...Xəzəllər xışıl-xışıl,***
***İlğımlar işıl-işıl,***
***Mürgülər mışıl-mışıl***
***Röyalar yumru-yumru.***

Mən qürbətdə çox olduğumdan doğma kəndimin, el - obamın havasını, qoxusunu Ramizin poetik dünyasından alıram.

***...Qızılı tellərə yaşıl şeh düşür,***
***Ay quzey qarında bəyaz gül açır.***
***Çiçəklər zoğalın sarı gülüşü***
***Göyəm ağacları göm-göy dil açır,***
***Bu çiçək axşamı,***
***bu gül axşamı***

O, bu gün Azərbaycanın çağdaş intellektual poeziyasının güman yeri, arxa yeridir. İnsanlar bu Ruh adamını, Fəlsəfə adamını, Romantika və Könül - Söz adamını bəzən küsdürürlər.

Yer kürəsinin ağrı-acılarını canına, öz qələminə, öz duyğularına çəkib hopduran Ramiz Qusarçaylı sənətkar ömrü yaşayir.

***...Hardasan, öldürür bu təklik məni,***
***Ovutmur bu güllük, çiçəklik məni...***
***Sənsiz göyüm-göyüm göynəyirəm mən,***
***Sənsiz bu dünyanı neynəyirəm mən...***

Ramiz ləyaqətini, şəxsiyyətini, namusunu qoruyan insandır. Bu cəhət bütün aydınlığı ilə onun şeirlərində özünü açıq şəkildə göstərir.

Kaspi.-2019.-5-7 yanvar.